# Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xarici dövlətlərdəki nümayəndələrinin (gömrük attaşelərinin) təyin edilməsi və onların fəaliyyətinin təmin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədrinə Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin funksiyalarının həyata keçirilməsinin təmin edilməsi üçün mühüm əhəmiyyət kəsb edən dövlətlərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xarici dövlətlərdəki nümayəndələrini (gömrük attaşelərini) təyin etmək səlahiyyəti verilsin.

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xarici dövlətlərdəki nümayəndələri (gömrük attaşeləri) Azərbaycan Respublikasının həmin xarici dövlətlərdəki səfirliklərinə, onların bu səfirliklərin strukturlarına və ştat cədvəllərinə daxil edilməməsi şərti ilə ezam olunurlar.

3. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xarici dövlətlərdəki nümayəndələri (gömrük attaşeləri) Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinə ayrılmış dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir.

4. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xarici dövlətlərdəki nümayəndələrinin (gömrük attaşelərinin) fəaliyyətinin təmin olunması ilə bağlı maliyyə və maddi-texniki təchizat məsələlərini həll etsin.

5. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, öz səlahiyyətləri daxilində bu fərmandan irəli gələn məsələləri həll etsin.

6. Bu fərman imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 16 dekabr 2005-ci il***

***№ 331***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (17 dekabr 2005-ci il, № 292) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (12 dekabr 2005-ci il, № 12, maddə 1100) («VneshExpertService» LLC).***

*© VneshExpertService LLC*